# İMİŞLİ: AQROSERVİS XİDMƏTİNDƏN RAZILIQ



İmişli rayonunun torpaqları olduqca bərəkətlidir, pambıqçılıq, taxılçılıq və heyvandarlıq rayon sakinlərinin əsas məşğuliyyət sahələridir. Göz işlədikcə uzanıb gedən düzlərdə əkin sahələrinə ilboyu aqrotexniki qaydalar əsasında qulluq edilir, mineral və üzvi gübrələrin verilməsi, suvarma tədbirləri düzgün təşkil olunur. Bütün ərazidə məhsuldarlığı artırmaqdan ötrü münbit şərait mövcuddur. Prezident İlham Əliyevin xüsusi sərəncamları əsasında fermerlərə güzəştlərin edilməsi, buğda istehsalçılarına əlavə pul vəsaitlərinin verilməsi aqrar sahədə çalışanların doğma işə münasibətini daha da yüksəltmiş, əkinlərə göstərilən aqrotexniki xidmətin getdikcə yaxşılaşmasına səbəb olmuşdur.

Regionların sosial-iqtisadi inkişafına dair Dövlət proqramlarından irəli gələn vəzifələrin yerinə yetirilməsində, ölkədə ərzaq təhlükəsizliyinin təmin olunmasında "Aqrolizinq" ASC Sabirabad regional nümayəndəliyinin rayonda fəaliyyət göstərən bölməsi xüsusilə fərqlənir. İmişli fermerləri təşkilatın işindən daim razılıq edirlər.

Bölmənin rəhbəri Vüqar Həşimovla görüşdük, o, Azərbaycan Texnologiya Universitetini bitirdikdən sonra əvvəlcə İmişli Şəkər zavodunda çalışmış, kənd təsərrüfatı işlərinə maraq onu "Aqrolizinq"ə gətirib çıxartmışdır. "Aqrolizinq" sisteminin müasir şəraitdə necə böyük əhəmiyyət kəsb etdiyini yaxşı bilir.

Həmsöhbətim kollektivin həyata keçirdiyi tədbirlər haqqında məlumat verərək dedi:

–Əminliklə demək olar ki, fermerlər Aqroservis xidmətinə vərdiş etmişlər, onu bəyənir, qiymətləndirirlər. Artıq bu xidmət aqrar sahənin tərkib hissəsinə çevrilmişdir və tam mənada demək olar ki, özünü doğrultmuşdur. Kənd adamlarından kimdən soruşsanız, təsdiq edəcək ki, Aqroservis onların yaxın köməkçisidir. Kənd təsərrüfatında bütün işlərin görülməsində onun rolu böyükdür. Başqa sahələr kimi aqroservis xidmətinin təşkili də dövlət başçısının kənd əməkçilərinə göstərdiyi hərtərəfli dəstəyin bir nümunəsidir. Prezident cənab İlham Əliyev öz çıxışlarında dəfələrlə vurğulayıb ki, həmin xidmətin ölkənin iqtisadiyyatında əhəmiyyəti danılmazdır, kəndli-fermer təsərrüfatları bu xidmətdən lazımınca istifadə etməlidirlər. Fəaliyyətimizə verilən yüksək qiymət bizi həmişə daha yaxşı işləməyə ruhlandırmışdır.

Bölmə rəhbəri Vüqar Həşimovun sözlərindən aydın oldu ki, İmişlidə kənd təsərrüfatı sahəsinə aqroservis xidmətinin təşkilinə, doğrudan da, xüsusi fikir verilir, şum və səpin işlərindən başlanmış biçinə kimi hər zaman aqrolizinq yolu ilə gətirilən maşın və mexanizmlərdən, digər texniki vasitələrdən və materiallardan, mineral gübrələrdən geniş istifadə olunur. Bölmə torpaq mülkiyyətçilərinin maşın və mexanizmlərə olan bütün tələblərini və ehtiyaclarını lazımınca ödəyir. Kənd camaatı texnika və digər mexanizmlər, ehtiyat hissələri barəsində heç bir problem hiss etmirlər, həmin məqsədlə işlərin qızğın çağında başqa rayonlara getməyə, vaxt itirməyə ehtiyac qalmayıb. Fermerlər üçün hər hansı texnika sarıdan heç bir məhdudiyyət yoxdur və bütün sifarişlər bölmənin imkanları daxilindədir. Bu sahədə torpaq mülkiyyətçiləri ilə müqavilələr bağlanmışdır. Hazırda onların sifarişi ilə kənd təsərrüfatı işlərində 209 ədəd müxtəlif maşın və mexanizmlərdən istifadə olunur. Bu mövsümdə kollektiv tərəfindən rayon üzrə mövcud olan 17552 hektarlıq sahələrdə taxıl yığımını mütəşəkkilliklə başa vurmaq məqsədilə zəmilərə 23 kombayn çıxarılmışdır.

Aqroservisin işçiləri yem tədarükündə də fermer təsərrüfatlarına yaxından köməklik göstərirlər. Cari ildə otbiçən və dərzbağlayan aqreqatlarla təsərrüfatlarda yüzlərlə hektar sahənin otu biçilmişdir, minlərlə ot dərzləri bağlanmışdır.

Müəssisə tərəfindən torpaq mülkiyyətçiləri güzəştli şərtlərlə mineral gübrələrlə təmin olunurlar. Taxıl istehsalı və özəl toxumçuluq təsərrüfatlarına güzəştli şərtlərlə gübrə satışı davam edir, fermerlər istənilən vaxtda müəssisəyə müraciət edib gübrə ala bilərlər.

Bölmənin yüksək ixtisaslı peşə sahibləri öz işlərinin öhdəsindən bacarıqla gəlirlər.

**Sabir MUSTAFAYEV,**
**"Respublika".**